https://doi.org/10.36719/2706-6185/44/27-31

**Rafiq Rəhimov**
Naxçıvan Dövlət Universiteti
tarix üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0009-2558-5977
rafiq_rahimov@mail.ru

# Naxçıvan –Türkiyə ictimai-siyasi əlaqələrin perpektivləri (1991-2001-ci illər)

**Xülasə**

Türkiyə və Azərbaycan arasında istər siyasi, istər iqtisadi istərsə də digər sahələrdə əlaqələr qədim tarixi dayaqlar üzərində qurulmuşdur. Bu tarixi dayaqlar üzərində təşkil olunmuş siyasət günümüzdə də yüksələn xətt ilə özünü göstərməkdədir və bununla yanaşı iki dövlət arasında olan əlaqələr digər dövlətlərə, xalqlara örnək olacaq səviyyədə təşkil olunmaqdadır. Tarixi bağlılıqlarımız bu gün dövlətlərimizin yürütdüyü birgə siyasətlərin əsas istinad nöqtəsi kimi görülür. XX əsrin əvvəllərində xüsusi ilə Azərbaycan Cümhuriyyətinin yarandığı dövrdə qarşılaşdığı çətinliklərdə dost, qardaş Osmanlı imperiyasının öz qardaş əlini uzadaraq, Şərqdə ilk demokratik dövlətin yaranmasına verdiyi əvəssiz yardım bütün Türk tarixinə qızıl hərflərlə həkk olunmuşdur.

Bildiyiniz kimi, Türkiyənin böyük lideri Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimizdir, kədəri kədərimizdir" kəlamı, böyük dövlət xadimi ümmilli lider Heydər Əliyevin "bir millət, iki dövlət" fikirləri hər zaman iki dövlət arasında körpü rolunu oynamışdı.

***Açar sözlər:*** *lider, imperiya, imtiyazlar, strateji əməkdaşlıq, müstəqillik*

**Rafig Rahimov**
Nakhchivan State University
PhD in History
https://orcid.org/0009-0009-2558-5977
rafiq_rahimov@mail.ru

# Perspectives of Public-Political Relations in Nakhchivan-Turkey (1991-2001 years)

**Abstract**

Relations between Turkey and Azerbaijan, whether in political, economic or other areas, are built on ancient historical foundations. The policy organized on these historical foundations is still showing itself with a rising line today, and at the same time, the relations between the two states are being organized at a level that will be an example for other states and peoples. Our historical ties are seen as the main reference point for the joint policies pursued by our states today. At the beginning of the 20th century, especially during the establishment of the Republic of Azerbaijan, the friendly and brotherly Ottoman Empire extended its brotherly hand in the difficulties it faced and the invaluable assistance it provided to the establishment of the first democratic state in the East has been engraved in golden letters in all Turkish history.

As you know, the words of the great Turkish leader Mustafa Kemal Ataturk "Azerbaijan's joy is our joy, its sorrow is our sorrow" and the ideas of the great statesman and national leader Heydar Aliyev "one nation, two states" have always played the role of a bridge between the two states.

***Keywords:*** *leader, empire, independence, strategic cooperation, privileges*

## Giriş

Azərbaycan müstəqilliyə qovuşduğu 1991-ci ildə onu tanıyan ilk dövlət Türkiyə dövləti oldu. O, dövrdən indiyə qədər Türkiyə ilə Azərbaycanın arasında iqtisadi, mədəni, siyasi, ticari əlaqələr

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

yüksək səviyyədə inkişaf etmişdir. Türkiyə Azərbaycanda 1991-ci il 25 may tarixindən konsulluq, 1992-ci ilin 14 yanvar tarixindən isə səfirlik açılmışdır. 2 noyabr 1992-ci il tarixində Azərbaycanın Ankara səfirliyi fəaliyyətə başlamışdır. Türkiyə SSRİ dağıldıqdan sonar Ermənistan dövlətinində müstəqilliyini tanımış, onlarla ictimai-siyasi, iqtisadi əlaqələr qurmuş lakin sonralar ermənilərin həm Azərbaycan torpaqlarına təcavüzünü, həm də böyük Ermənistan ideyasında olduqlarını görmüş bunun üçün bir sıra məsələləri dondurmuşdur. Çünki Azərbaycan ilə Türkiyə həm eyni kökdən həm də eyni dindəndilər (Abdullayev, 1998).

Bundan əlavə Türkiyənin Qafqaz siyasəti baxımından Azərbaycan çöx böyük əhəmiyyətə sahib idi. Aralarındakı qan bağlılığı və zəngin enerji qaynaqları, eyni zamanda onun beynəlxalq sistemə inteqrasiyası Türkiyə baxımından xüsusi əhəmiyyət kəsb etməkdədir. Azərbaycan-Türkiyə diplomatik-siyasi əlaqələrinin öyrənilməsi hər iki xalq arasında qarşılıqlı münasibətlərin ortaq tarixi və milli-mənəvi təməllər üzərində qurulmasının zəruriliyini önə çəkir. Azərbaycanın müstəqilliyinə qovuşmasından sonrakı əlaqələrin keyfiyyət dəyişikliklərindən bəhs edərkən ilk növbədə tarixi və ictimai-siyasi şəraitin doğurduğu hadisələrin ümumi mənzərəsini aydınlaşdırmaq lazımdır. Müasir dövrdə Azərbaycanın etibarlı strateji tərəfdaşı olan Türkiyə ilə münasibətlərin möhkəmləndirilib daha da genişləndirilməsi Azərbaycan dövlətinin xarici siyasətinin çox mühüm tərkib hissəsidir. Onu da vurulayaq ki, Türkiyə Azərbaycan əlaqələrində Naxçıvan ən mühüm strateji əhəmiyyət daşıyır (Cahangirli, 2006).

18 oktyabr 1991-ci il tarixində müstəqillik aktı qəbul edən Azərbaycan respublikasını Türkiyə bir ay keçmədən, yəni noyabrın 9-da tanıyan ilk dövlət oldu. Türkiyə ilə Azərbaycan arasında diplomatik əlaqələr isə rəsmi olaraq 1992-ci ilin 14 yanvarından başladı. Azərbaycan müstəqilliyini elan etdiyi andan istiqamətini Türkiyəyə tərəf çevirdi və əlaqələri strateji əməkdaşlıq səviyyəsinə qaldırılması üçün ildən-ilə artan templə fəaliyyət göstərməyə başladı. Qeyd etmək yerinə düşər ki, 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi"nin xarici neft şirkətlərinin konsorsiumunda "Türk neft" şirkətinin təmsil olunması xüsusi geostrateji düşüncəyə sahib olan Ulu öndər Heydər Əliyevin Türkiyə ilə Azərbaycan arasında uzaq hədəflərə hesablanmış böyük bir addımı idi. Sonrakı hədəflərə hesablanmış neft siyasətindən sonra iki qardaş ölkə arasında bütün sahələrin inkişafı ilə əlaqədar baş verən qanunauyğun proseslər regionun iqtisadi inkişafı üçün çox vacibdir. "Əsrin müqaviləsindən" başlayan bu proses fakta çevrilmişdir və ildən-ilə gözlərimiz qarşısında bu fakt daha da möhkəmlənməkdədir. Həmin faktın təsdiqlənməsi yalnız iqtisadi, sosial amillərlə bağlı olmayıb həmdə SSRİnin süqutundan sonra Xəzər hövzəsi və Cənubi Qafqazda yaranmış geosiyasi vəziyyətin Ulu öndər Heydər Əliyev tərəfindən düzgün qiymətləndirilməsi ilə bağlıdır". Yeni müstəqilliyini qazanan Azərbaycan, gənc bir ölkə olaraq qarşılaşacağı çətinliklərin öhdəsindən gələ bilmək üçün Türkiyənin dəstək və yardımlarına ehtiyac hiss etməkdə idi. Azərbaycan müstəqilliyini qazandıqdan sonra Azərbaycan-Türkiyə əlaqələrinin çox yönlü bir şəkildə inkişaf etdirilməsi üçün əlverişli imkanlar, imtiyazlar və daha da əhəmiyyətlisi xalqların eyni istək və arzularından qaynaqlanan tələblər ortaya çıxmışdır (Aslanov, 2011).

## Tədqiqat

Heydər Əliyevin Naxçıvan dövrü siyasi fəaliyyətində ölkəmizin Türkiyə ilə əlaqələrinin qurulmasında və inkişafında iki şəxsiyyətin - Heydər Əliyev-Süleyman Dəmirəl münasibətlərinin böyük dostluq və qardaşlıq səviyyəsində olması da mühüm rol oynamışdı. Hətta uzun illər Heydər Əliyevin çox şirin bir tərzdə dediyi "Dostum, qardaşım Süleyman Dəmirəl" müraciəti də adamların dillərində əzbər olmaqla, həm də sevgi və güvənc duyğusu kimi səslənirdi. Ermənistanın təcavüzü ilə əlaqədar dərin narahatlıq keçirən Türkiyə rəhbərliyinin təcavüzün dayandırılmasına verdiyi əməli dəstəyin bir hissəsi də, şübhəsiz ki, bu doğmalıqdan qaynaqlanırdı. Hətta 1992-ci ilin mayında Naxçıvanın Sədərək rayonuna ermənilərin hücumu ilə əlaqədar Türkiyə hökuməti bəyanat qəbul etmiş, 1921-ci il Qars müqaviləsinin şərtlərinə əsasən Naxçıvan MR-in muxtariyyətinin qarantı olduğunu dünyaya bəyan etmişdi. O zaman Heydər Əliyev Türkiyənin dövlət və hökumət rəhbərləri ilə əlaqə yaradaraq Qars müqaviləsində olan öhdəliklərin yenidən rəsmi şəkildə tanınmasına nail oldu və dünya ictimaiyyətinə təcavüzlə bağlı müraciət etdi. Belə fəaliyyətin nəticəsi idi ki, dünyanın 57 dövləti rəsmi şəkildə Ermənistanın Naxçıvana hərbi təcavüzünü pisləyən bəyanatlar vermişdi. Bu hadisədən iki ay sonra, 1992-ci ilin iyulunda Türkiyəyə səfər edən Heydər Əliyevin dövlət rəhbərləri

və ictimaiyyətlə görüşlərində də bu məsələ diqqətdə olmuşdu. Bu səfər çərçivəsində Naxçıvanda Türkiyə konsulluğunun açılması məsələsi həllini tapmış, 7 ay sonra, 1993-cü ilin 5 fevralında konsulluq fəaliyyətə başlamışdı (Azərbaycan Türkiyə əlaqələri və Heydər Əliyev (1991-2001), 2002).

Naxçıvan Muxtar Respublikasının Türkiyənin qonşu və yaxın vilayətləri - Qars, İğdır, Ağrı, Ərzurum, Van ilə də birbaşa əlaqələrinin yaradılması Heydər Əliyevin uzaqgörən siyasətindən doğurdu. Belə bir fakt da var ki, İğdıra vilayət statusunun verilməsində (27 may 1992-ci il) Heydər Əliyevin xüsusi rolu olmuşdu. Hələ XX əsrin əvvəllərində müxtəlif səbəblərdən Türkiyəyə üz tutan soydaşlarımızın burada daha çox məskunlaşması faktı ulu öndərin diqqətindən yayınmamışdı. Heydər Əliyev Türkiyə səfərlərində bu bölgələrdə olmuş, həmin vilayətlərin nümayəndə heyətləri dəfələrlə Naxçıvana səfərlər etmiş, kömək və dəstəkləri ilə Naxçıvana üz tutmuşdular. 1992-ci ilin avqustunda Heydər Əliyevin Türkiyəyə növbəti səfərində ərzaq yardımı barədə razılaşma olmuşdu. Türkiyə Respublikası ilə Azərbaycan Respublikası Naxçıvan MR arasında birgə inşa edilən, uzunluğu 288 metr olan Sədərək-Dilucu körpüsünün istifadəyə verilməsi ilə Azərbaycan-Türkiyə arasında əməkdaşlığın yeni dövrü başlandı. Bu körpü iki qardaş xalqın həsrətinə son qoymaqla yanaşı, iki respublika arasında iqtisadi, mədəni əlaqələrin genişlənməsi və inkişaf etməsi baxımından çox böyük əhəmiyyətə malik idi (Hacıyev, 2011).

1992-ci il mayın 28-i Sədərək-Dilucu körpusünün açılışı ilə iki respublika arasında əlaqələr daha da inkişaf etmiş və iqtisadi blokada yarılmışdır. Sədərək-Dilucu körpüsünün rəsmi açılışında iştirak etmək üçün Türkiyənin Baş naziri Süleyman Dəmirəlin başçılığı ilə türkiyəli nazirlərdən, məmurlardan və ziyalılardan ibarət nümayəndə heyəti Naxçıvana gəlmişdi. Körpünün açılış mərasimində çıxış edən ümummilli lider demişdi: "Araz çayının o sahilində, bu sahilində dost, qardaş kimi yaşamışıq. Ancaq 70 ildir ki, bir-birimizlə görüşmək üçün, əlaqə saxlamaq üçün həsrət çəkmişik. 70 il biz bu günü böyük həsrətlə gözləmişik. İndi isə bizim bu arzularımız, bizim bu diləklərimiz həyata keçibdir. Naxçıvan ilə, Azərbaycan ilə Türkiyəni bağlayan nəhəng bir körpü tikilibdir" (Həbibbəyli, 2006).

İki qardaş xalqın uzun illər bir-birinə qovuşmaq arzusunu gerçəkləşdirən bu körpünün açılışına Türkiyənin Baş naziri Süleyman Dəmirəl də "Bu körpü, sadəcə, Türkiyə ilə Azərbaycanı deyil, iki ayrı dünyanı, Avropayla Asiyanı, Avropayla Qafqazları - hamısını bir-birinə bağlayacaqdır" deyə olduqca yüksək bir dəyər vermişdi. Naxçıvanlıların "Həsrət körpüsü", türklərin "Könül körpüsü" adlandırdıqları Ümid körpüsünün istifadəyə verilməsi ilə blokadanın tədricən aradan qaldırılmasına, əhalinin rifahının yaxşılaşdırılmasına, muxtar respublikanın dünyaya tanıdılmasına başlanmışdı. Naxçıvan MR Ali Məclisi Rəyasət Heyətinin 1992-ci il 9 iyul tarixli qərarı ilə bu körpü Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında rəsmi sərhəd keçid qapısı elan edildi. Qısa müddətdə İğdır-Naxçıvan elektrik xətti ilə Türkiyənin elektrik şəbəkəsinə qoşulan Naxçıvana 63 meqavat həcmində elektrik enerjisinin nəqlinə başlanıldı. Bu gün də Türkiyə-Azərbaycan və Naxçıvan əlaqələrinin səviyyəsi, türk dünyasının birlik və bütövlük ideyalarının gerçəkləşdirilməsi istiqamətində görülən işlərin əhəmiyyətindən danışanlar Sədərək-Dilucu körpüsünə xüsusi önəm verirlər. 1992-ci il iyunun 1-5-də Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevin başçılıq etdiyi nümayəndə heyəti Türkiyə hökumətinin dəvəti ilə Ankara və İzmirdə olmuşdu. Türkiyənin rəsmiləri ilə görüşlərdə Naxçıvanda yaranmış gərgin vəziyyətdən danışan Heydər Əliyev demişdi ki, muxtar respublikada kəskin ərzaq və yanacaq qıtlığı yaranmışdır, cəmi 3-4 günlük yanacaq ehtiyatı qalmışdır. 24 mart 1992-ci il protokoluna əsasən ayrılacaq 100 milyon dollar kreditdən istifadə edilməsi məsələləri müzakirə edilərək 10 milyon dollarlıq ərzaq almaq üçün razılıq əldə edilmişdi. Ulu öndər Heydər Əliyevin Türkiyəyə üçüncü rəsmi səfəri 1992-ci il avqustun 10-14-də olmuşdur. Səfər zamanı Heydər Əliyev 24 mart 1992-ci ildə imzalanmış əməkdaşlıq protokolunun həyata keçirilməsi tədbirləri haqqında Süleyman Dəmirəl və dövlət nazirləri ilə danışıqlar aparmışdır. Danışıqlardan sonra Türkiyə Respublikası tərəfindən ayrılan kreditdən istifadə olunmasına başlanılmışdır. Naxçıvan blokadada olduğu vaxtlarda Türkiyə ilə əlaqələri əsasən qonşu dövlətin muxtar respublikaya maddi və ərzaq yardımı formasında həyata keçirilirdi. Həmin dövrdə Naxçıvan Muxtar Respublikasının Türkiyə Respublikası ilə mədəni əlaqələri də qurulmuşdu (Marangi, 2000). Heydər Əliyevin səyi nəticəsində iki tərəfin mədəniyyət kollektivlərinin qarşılıqlı

qastrolları təşkil edilirdi. 1992-ci il oktyabrın 5-də Türkiyədə təhsil almağa gedən tələbələrlə görüşən Heydər Əliyev bunu Naxçıvanın həyatında mühüm hadisə adlandıraraq, naxçıvanlı gənclərə azərbaycanlı adını yüksək tutmağı, yüksək elmə, ixtisasa yiyələnməyi, türk dili ilə yanaşı, əcnəbi dilləri də öyrənməyi tövsiyə edirdi. Heydər Əliyevin Türkiyəyə sonrakı səfərləri zamanı aparılan danışıqlar, imzalanmış sənədlər Naxçıvan-Türkiyə münasibətlərinin inkişafına təkan vermiş, muxtar respublikanın sosial-iqtisadi problemlərinin həllində əvəzsiz rol oynamışdır. Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü onun yalnız Türkiyə ilə əlaqələrin qurulmasına deyil, türk dünyasının problemlərinin həllinə də xüsusi önəm verdiyini göstərir (Məmmədov, 2010).

Zaman göstərir ki, Türkiyə-Azərbaycan əlaqələrində, türk dünyasının həmrəyliyində Naxçıvanın xüsusi yerinin olması ən yeni tariximizin önəmli faktlarındandır. 2008-ci və 2017-ci illərdə Türkiyə baş nazirlərinin Naxçıvana səfərləri, 2009-cu ildə Türkiyə Prezidentinin Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə görüşündə iştirak üçün Naxçıvana gəlməsi qardaş ölkənin bu qədim diyara verdiyi önəmin ifadəsidir. 1991-1993-cü illərdə Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan Muxtar Respublikasında milli maraqlara əsaslanan və siyasi perspektivləri nəzərə alan xarici siyasət kursu müəyyənləşmiş, qonşu dövlətlər və beynəlxalq təşkilatlarla qarşılıqlı münasibətlər qurulmuşdur. Uğurlu xarici siyasət Naxçıvanın tanınmasına, etibarlı tərəfdaş kimi beynəlxalq miqyasda nüfuzunun artmasına xidmət göstərmişdir. Heydər Əliyevin atdığı qətiyyətli addımlar sayəsində diplomatiyamızın fəal mövqeyi formalaşmış, Naxçıvanın sərhədlərinin toxunulmazlığı beynəlxalq hüquqi normativ sənədlərdə öz əksini tapmışdır. Başqa sözlə, ümummilli lider Heydər Əliyevin Türkiyə-Azərbaycan əlaqələrinin hərtərəfli inkişafı, Naxçıvanın beynəlxalq aləmdə tanınması yolunda əvəzsiz tarixi xidmətləri olmuşdur (Məmmədov, 2005).

Azərbaycan və Türkiyə arasında siyasi əlaqələr strateji müttəfiqlik səviyyəsinə yüksəlmiş, 15 sentyabr 2010-cu ildə İstanbulda imzalanmış Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının (YSSƏŞ) yaradılmasına dair Birgə Bəyannamə ilə təsbit olunmuş YSSƏŞ-in mütəmadi keçirilən iclasları iki ölkə arasındakı bütün sahələrdə əlaqələrin daha da genişlənməsi və dərinləşməsinə öz töhvəsini vermişdir. Şuranın 25 oktyabr 2011-ci ildə İzmir şəhərində ilk iclası keçirilmiş, 11-12 sentyabr 2012-ci il tarixində Qəbələ şəhərində 2-ci, 2013-cü ilin 12-13 noyabr tarixlərində Ankarada 3-cü, 2015-ci ilin 14-15 yanvar tarixlərində Ankarada 4-cü, 15 mart 2016-cı il tarixində Ankarada 5-ci və 31 oktyabr 2017-ci il tarixdə isə Bakıda 6-cı iclası keçirilmiş, iclasların yekununda bütün sahələrdə əlaqələr müntəzəm nəzərdən keçirilmiş və bir çox sahələrə dair əməkdaşlığa dair mühüm sənədlər imzalanmışdır (Məmmədov, 2010).

## Nəticə

Türkiyə Qafqaz siyasətini həmişə diqqət mərkəzində saxlamış və regionda cərəyan edən proseslərə fəal müdaxilə etməyə çalışmışdır. Hazırda Azərbaycan Türkiyənin Qafqazda ən böyük müttəfiqi və iqtisadi tərəfdaşıdır. Azərbaycan Türkiyənin Qafqazda olduğu kimi, həm də Orta Asiya və Xəzər bölgəsində digər dövlətlərlə, xüsusən türkdilli dövlətlərlə əlaqə yaratması üçün mühüm vasitə rolunu oynayır. Xəzərin enerji resurslarının dünya bazarlarına nəql olunması sahəsində Azərbaycan ilə Türkiyə arasında davamlı əməkdaşlığın genişləndirilməsi hər iki dövlətin regionda siyasi-iqtisadi və strateji maraqlarının təmin edilməsini şərtləndirir. Azərbaycanın neft strategiyasının həyata keçirilməsi Qafqaz regionunda sabitliyin möhkəmləndirilməsi və qonşu dövlətlərlə, xüsusilə Türkiyə ilə strateji tərəfdaşlıq münasibətlərinin daha da dərinləşməsinə müsbət təsir göstərir. Bu gün Azərbaycan-Türkiyə tərəfdaşlığı, bütövlükdə, regionun gələcək inkişafı üçün əlavə imkanlar yaradır. Çünki Azərbaycan və Türkiyə strateji mənada bir-birini tamamlayan vahidin ayrılmaz hissələridir. Bu müttəfiqlik eyni zamanda regionda sülhün və təhlükəsizliyin qorunmasının, eləcə də iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsidir. Heç şübhə yoxdur ki, bundan sonra da Türkiyə-Azərbaycan əlaqələrində, türk dünyasının həmrəyliyində Naxçıvanın xüsusi yerinin olması ən yeni tariximizin önəmli faktlarından olacaqdır.

Bütün dövrlərdə Türkiyə-Azərbaycan münasibətləri həm iki ölkə üçün, həm də region üçün çox önəmli rol oynayıb. Bu gün ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətləri mövcuddur və bütün sahələrdə əlaqələrimiz uğurla inkişaf edir. Bu səbəbdən Azərbaycanın dövlət başçısı İlham Əliyev bəyan edib ki, bölgədə Türkiyə-Azərbaycan əməkdaşlığı, işbirliyi olmadan heç bir təşəbbüs, heç bir layihə həyata keçirilə bilməz. Bununla yanaşı, Türkiyə və Azərbaycan regional əməkdaşlıq

prosesinin fəal və əsas söz sahibi olan iştirakçılarıdır. Hər iki dövlət özünün iqtisadi və enerji imkanlarından, eləcə də geosiyasi mövqeyindən ikitərəfli və regional əməkdaşlığın genişlənməsi istiqamətində səmərəli surətdə istifadə edir. Bu gün bölgənin uzunmüddətli inkişaf strategiyasının müəyyənləşdirilməsində aparıcı rol oynayan və iki ölkə arasındakı münasibətlərin çox vacib elementlərindən olan neft və qaz kəmərləri təkcə regionda deyil, eləcə də bütün dünyada dövlətlərimizin nüfuzunu əhəmiyyətli dərəcədə artırıb. Bu layihələr Azərbaycanın, Türkiyənin, eləcə də digər ölkələrin enerji təhlükəsizliyi üçün böyük təminat verir. Eyni zamanda, iki dövlət arasında genişlənən əməkdaşlıq və strateji tərəfdaşlıq regionda sabitliyin göstəricisinə çevrilib. Ümummilli lider Heydər Əliyevin xarici siyasət kursunda Türkiyə ilə münasibətlərin inkişafına yönəlmiş ardıcıl və məqsədyönlü xəttin dövlət başçısı İlham Əliyev tərəfindən daha da inkişaf etdirilməsi sayəsində ölkələrimizin strateji tərəfdaşlığının daha da dərinləşməsinə nail olunub.

## Ədəbiyyat

1. Abdullayev, M. (1998). *Azərbaycan-Türkiyə əlaqələri*. Bakı: Mütərcim, 112.
2. Aslanov, E. (2011). *Azərbaycan-Türkiyə: dostluq, qardaşlıq və strateji tərəfdaşlıq*. Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi. Bakı, 158.
3. *Azərbaycan Türkiyə əlaqələri və Heydər Əliyev (1991-2001)*. (2002). Bakı, 180.
4. Cahangirli, C. (2006). *Müasir dövrdə Azərbaycan-Türkiyə münasibətləri*. Bakı.
5. Hacıyev, İ. M. (2011). *Naxçıvan Muxtar Respublikasıın ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər)*. Naxçıvan: Əcəmi NPB, 272.
6. Həbibbəyli, İ. Ə. (2006). *Heydər Əliyevin inkişaf strategiyası və Naxçıvan // Heydər Əliyev və Azərbaycanın davamlı inkişaf strategiyası*. Bakı, 480-489.
7. Məmmədov, V. (2005). *Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005-ci illər)*. Bakı: Şirvannəşr, 208.
8. Marangi, A. (2000). *Azərbaycan Türkiyə əməkdaşlığının perspektivləri. Azərbaycan Respublikası XİƏM.*
9. Məmmədov, M. (2010, 15 may). *Azərbaycan-Türkiyə əlaqələrində Naxçıvanın yeri*. Azərbaycan.

Daxil oldu: 04.10.2024
Baxışa göndərildi: 13.11.2024
Təsdiq edildi: 07.01.2024
Çap olundu: 28.02.2025